**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İBTİDAİ SİNİFLƏRİN OXU MATERİLLARINDA DİL HADİSƏLƏRİ ÜZƏRİNDƏ MÜŞAHİDƏNİN TƏLİMİN KEYFİYYƏTİNƏ TƏSİRİ

İxtisas: 5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dilinin tədrisi metodikası)

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Aysel Balasultan qızı Şeydayeva**

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Fikrət Ramazan oğlu Xalıqov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Məmmədli İsmayıl Oruc oğlu**

pedaqoji elmlər doktoru, professor
**Akif Nurağa oğlu Abbasov**

pedaqogika üzrə fəlsəfə doktoru,dosent
**Hümmətova Sevil Əhməd qızı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən BFD 2.15 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix üzrə elmlər doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru,dosent
**Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: pedaqogika üzrə elmlər doktoru, dosent
**Vaqif Tapdıq oğlu Qurbanov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Sürətli sənayeləşmə, inteqrasiya ilə əlaqədar elm və təhsilin dünyada rolu artır, qlobal rəqabət güclənir. Bu rəqabətin nəticəsində təhsilimizdə də əsaslı dəyişikliklər baş verir. Bu dəyişiklik və islahatlar ilk növbədə müasir dövrün öyrədənləri və öyrənənləri qarşısına yeni tələblər qoyur. XXI əsrin başlanğıcında Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olaraq "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" verdiyi fərman "*orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi və Azərbaycan dilində təhsilin keyfiyyəti ilə bağlı əsaslı dönüş yaratmaq*" bu istiqamətdə aparılan işlərə, o cümlədən elmi-metodik araşdırmalara böyük təkan verdi[1]: *."Azərbaycanda təhsil XX əsrin sonlarında böyük irəliləyiş əldə etmişdir. Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkirləri, maarifçiləri, ziyalıları, müəllimləri xalqımızı cəhalətdən çıxarmaq, ziyalı etmək üçün bu qədər iş görüblər. Azərbaycan Respublikasının təhsil tarixi yazılacaqsa, aydındır ki, hər mərhələdə görülən işlər orada öz əksini tapacaq və dəyərləndiriləcək.[2]"*

Həmçinin ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olaraq 2 yanvar 2003-cü il tarixdə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə" verdiyi fərman[3] bu sahədə son dövrlərdə aparılan bütün işlər üçün hüquqi zəmin yaratdı. Ona görə də müstəqillik dövründə dilimizin potensial imkanlarından daha səmərəli istifadə edilməsi məqsədi ilə ümumtəhsil məktəblərində onun tədrisi keyfiyyətinin yaxşılaşdırılması xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan

---

[1] Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanı. / "Azərbaycan müəllimi" qəz., Bakı: –1-7 iyul, –2001.

[2] Əliyev, H.Ə.Təhsil millətin gələcəyidir// Əliyev,H.Ə. –Bakı: –2002.– s.18.

[3] Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 3 yanvar 2003-cü il tarixli fərmanı. "Azərbaycan müəllimi" qəz., Bakı:– 9-16 yanvar .–2003.

Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" da bu sahədə görülən işlərə yetərli səviyyədə təkan verdi. Mütərəqqi ideyalara və qabaqcıl təcrübəyə istinadən hazırlanmış bu mühüm sənəddə təhsilimizin qarşısında qoyulan 5 prioritet istiqamət sırasında *"səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması"*[4] daha vacib bilinmiş və beləliklə, müasir mərhələdə şagirdlərin şəxsiyyət kimi yetişdirilməsinin nə dərəcədə önəmli olduğu diqqətə çatdırılmışdır.

Deməli, şagirdlərin şəxsiyyət kimi yetişdirilməsinin önəmli olduğu bir mərhələdə nitqin əhəmiyyəti, dil dərslərində oxu vərdişlərinin, nitq inkişafının aşılanmasınn səmərəli, daha məqsədyönlü yollarını tapmaq üçün, ümumtəhsil məktəblərində yeni metodik yanaşmalar, müasir düşüncə tərzi, habelə şagirdlərin nitqinin inkişafı üçün dil hadisələrinin daha dərindən tədqiqi və araşdırılması vacibdir.Təhsilin inkişafı ilə əlaqədar bu gün müasir məktəbin qarşısında bir sıra mühüm vəzifələr durur. Bunlardan ən önəmlisi cəmiyyətə yararlı olacaq, həyatda öz yerini tuta biləcək savadlı mütəxəssislərin, şəxsyyətlərin hazırlanması vəzifəsidir. Bu vəzifənin həlli prosesi ən əsası müəllimdən xüsusi peşə bacarığı tələb edir. Hər bir müəllim unutmamalıdır ki, bu gün parta arxasında oturan şagird, sabah cəmiyyətin qurucusu olacaqdır.Cəmiyyətin gələcək inkişafı bugünkü gənclərin hazırlıq səviyyəsindən asılıdır. Şagird şəxsiyyət kimi məktəbdə məhz təlim prosesində inkişaf edir və pedaqoji tədqiqatlarda şagirdlərin hərtərəfli inkişafı deyildikdə, ilk növbədə, onların nitq və təfəkkürünün inkişafı nəzərdə tutulur:

- *Şagirdlərin təfəkkürünün, nitqinin, iradəsinin, mənəviyyatının, estetik zövqünün və s. keyfiyyətlərinin inkişaf etdirilməsinin fənnin köməyi ilə formalaşdırılma səviyyəsi;*
- *Dərsdə şagirdlərdə düzgün, aydın, dəqiq, obrazlı, şüurlu, müfəssəl və yığcam, cazibəli nitq qabiliyyətinin formalaşdırılma vəziyyəti;*[5]

---

[4]Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası /"Azərbaycan məktəbi". –Bakı: –2013. № 5, –s.13.

[5] Mehrabov, A.O. Azərbaycan təhsilinin müasir problemləri //A.O.Mehrabov –Bakı: –2007.–448 s.

Müasir pedaqoji yanaşmalara diqqət yetirdikdə bir daha əmin oluruq ki, müasir məktəb şagirdi sadəcə çoxsaylı biliklərlə yükləyən qurum deyil; onları əqli, əxlaqi, psixoloji cəhətdən hərtərəfli inkişaf etdirərək gələcək həyata hazırlayan, həyatda maraq və qabiliyyətlərinə görə yer tutmalarına şərait yaradan təhsil ocağıdır. Hərtərəflli şəxsiyyət məfhumunda isə mükəmməl şifahi və yazılı nitqə yiyələnmə, fikirlərini istər şifahi, istərsə də yazılı formada düzgün, aydın, dəqiq, dolğun, müfəssəl, şüurlu çatdıra bilmə bacarığı da vacib amil kimi çıxış edir. Sözsüz ki, düzgün yazılı nitq dedikdə orfoqrafik bacarıqların formalaşdırılmasının zəruriliyi və önəmliliyi, bu prosesdə səmərəli yolların axtarışının aktuallığı bir daha sübutunu tapır. Beləliklə, pedaqoji və psixoloji aspektdən yanaşdıqda düzgün qurulmuş şifahi və yazılı nitqin şagirdin hərtərəfli inkişafında danılmaz faktor olduğunu bir daha sübut etmiş oluruq.

A.Rəhimov “Ana dilinin tədrisi metodikası” (ibtidai siniflərdə) dərsliyində ibtidai siniflərdə şagirdlərdə nitq vərdişlərinin formalaşdırılması məsələlərini geniş tədqiq etmişdir. O, şagirdlərə öz fikirlərini savadlı şəkildə ifadə etmək və qələmə almaq vərdişlərinin aşılanmasını ibtidai siniflərdə Azərbaycan dili təliminin qarşısında duran mühüm vəzifə kimi dəyərləndirmişdir. Müəllif qeyd edir ki, *“İbtidai məktəbdə orfoqrafik normalar fonetika, leksikologiya, morfologiya və sintaksis şöbələrinin tərkibində öyrədilir və şagirdlərin aydın, dəqiq, səlis və savadlı yazı vərdişlərinə yiyələnmələri, ümumiyyətlə, təlimdə müvəffəqiyyət qazana bilmələri orfoqrafiya üzrə işin elmi zəmində qurulması ilə sıx bağlıdır. Bu sırada da müəllifin tədqiqatından bəhrələnərək istənilən dil hadisələrinin müşahidəsini orfoqrafik çalışmalar üzərindən təşkil etmək mümkün olur.”*[6]

Mürəkkəb xüsusiyyətlərə malik dil, fikrin ifadəsi üçün qüvvətli vasitədir. Dil, nitq, ünsiyyət insan həyatının mənasını təşkil edir. Dilsiz insan cəmiyyətinin var olması mümkün deyil. Dinamik inkişafda olan proses kimi dil hər zaman dəyişikliklərə məruz qalır. Bu da dilin özünəməxsus xüsusiyyətlərə malik olmasıdır. Bildiyimiz

---

[6] Rəhimov, A.N. Ana dilinin tədrisi metodikası. // Rəhimov, A.N. –Bakı: –2003. –434 s.

kimi, dil elə ünsiyyət vasitəsidir ki, onun inkişafı insanların, cəmiyyətin inkişafından, sosiallaşmasından bilavasitə asılıdır. Cəmiyyətdə elə bir fəaliyyət sahəsi yoxdur ki, orada dildən istifadə olunmasın. Məhz bu səbəbdən də dildə baş verən bütün hadisələrin öyrənilməsinə praktik ehtiyac yaranır. Təbii ki, dil deyəndə ilk növbədə səsli dil nəzərdə tutulur. Səslər, sözlər, söz birləşmələri, cümlələr səsli dilin materiallarıdır. Dildəki hadisələr də səsli dildə müşahidə olunur. Öz ana dilinə mərhələlərlə, intiutiv şəkildə yiyələnən uşaq ünsiyyət qurduqca, təfəkkürünü inkişaf etdirmiş, nitqini zənginləşdirmiş, dünyagörüşünü genişləndirmiş olur. Məlum olduğu kimi dildə baş verən bütün proseslər müəyyən istiqamətə malikdir, yəni dil sadəcə ünsiyyət yaratmır, cəmiyyətin tarixini, gələcəyini, mədəniyyətini yaradır, yaşadır.

Dilçi alimlərin ən çox önəm verdikləri və öyrənməyə maraq göstərdikləri məsələlərdən biri də dil hadisələridir. Dildə müəyyən istiqamətə malik olan proseslər dilin inkişafının müxtəlif mərhələlərindəki universal dil ənənələrinin aparıcı təsiri ilə şərtlənir. Dil hadisələrinin mahiyyətini dilin normal qanunlarından kənara çıxma halları təşkil edir. Ümumi danışıq dilinin xüsusiyyətlərinin tədqiqi ədəbi dilin öyrənilməsi üçün  xüsusi əhəmiyyətə malikdir. Fərdi ədəbi dil xüsusiyyətlərinə malik nitqin formalaşması prosesi şagirdlərdə ibtidai siniflərdən başlayır. Bu səbəbdən də dilin qanunlarını, dil hadisələrini, ədəbi dil xüsusiyyətlərini ibtidai siniflərin oxu materialları üzərində tədqiq etmək vacibdir. Bəzi sözlərin nə üçün məhz fərqli  şəkildə tələffüz olunmasının asan deyilişlə bağlı izahı, əslində mahiyyətin açılmasıdır. Ona görə də göstərilir ki, hadisə üzdə, mahiyyət dərindədir. Hadisəni yaşadan mahiyyət, mahiyyətə diqqəti cəlb edən hadisədir. Ədəbi dildə bunların hər ikisinin mənası və vəzifələri öyrənilir və fonetik, leksik, sintaktik dil hadisələrinin mahiyyəti araşdırılır. Görkəmli alim Ə.Dəmirçizadənin bu sahədə fikirləri ilə desək: *“Müasir Azərbaycan dili kitablarında sözlərin, şəkilçilərin fonetik tipli tərkibində baş verən dəyişikliklər qiymətləndirilir. Qeyd olunur ki, ümumi inkişaf prosesi ilə, dildən istifadə edənlərin anlaşma tələbatı ilə əlaqədar hər dilin lüğət tərkibində, qrammatik quruluşunda, fonetik sistemində müxtəlif hadisələr baş verir, yeni sözlər yaranır, müstəqil sözlərdən*

*köməkçi sözlər formalaşır, köməkçi sözlərdən şəkilçilər yaranır, şəkilçilərin müxtəlif variantları törəyir, bu zaman müxtəlif tipli dəyişmələr, müxtəlif istiqamətli hadisələr olur. Dil vahidlərinin fonetik qabığında müxtəlif çalarlıqda təzahür edən hadisələr ümumiləşmiş halda fonetik hadisələr adlanır"*[7]. Dilin milli xüsusiyyətləri əsasında yaranan fonetik hadisə və qanunlar, xüsusilə başqa dillərdən alınma sözlərin dilimizə uyğunlaşdırılmasında əhəmiyyət kəsb edir. Müasir Azərbaycan dilində assimilyasiya, dissimiliyasiya, səsartımı, səsdüşümü, Ahəng qanunu, cingiltiləşmə qanunu kimi fonetik hadisə və qanunlar tədricən yaranmışdır. Fonetik hadisələr ədəbi dildə norma kimi tədqiq olunur. Fonetik hadisələrin mədəni nitqdə rolu danılmazdır. Dilimizin orfoepiya qaydaları başlıca olaraq məhz fonetik hadisələrə əsaslanır. Bu hadisə və qanunların tədqiqi dilimizin inkişafının göstəricisidir. Məhz bu səbəbdən də istər Azərbaycan dili proqramlarında, istərsə də Azərbaycan dili fənn kurikulumlarında nitq inkişafı məsələsinə xüsusi yer verilmişdir. Əsas təlim fənlərindən biri olaraq Azərbaycan dili qarşısında duran vəzifələr geniş və çoxcəhətlidir. Doğrudur, fənnin başlıca məqsədi *"ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir"*[8]. Milli təfəkkürün ifadə forması kimi *"onun düşünmə, öyrənmə və danışma vasitəsi olması"*[9] bu fənnin üzərinə düşən vəzifələri daha da genişləndirir.

Dil hadisələri istər leksik, istər fonetik olsun, istərsə də sintaktik olsun şagirdlər üçün anlaşıqlı olmur. Dil dərslərində şagirdlərin söz ehtiyatı ətraf aləmdəki canlı və cansız əşyaların, hadisələrin adları hesabına zənginləşir. Şagirdlər qrammatik qanunlara, qaydalara uyğun olaraq həmin sözlərdən istifadə etməklə cümlələr qurur, fikirlərini rabitəli şəkildə ifadə edirlər. Şagirdlərin cəmiyyətdəkilərinin fikrini anlamaları və öyrəndiklərini ifadə etmələri həmin söz ehtiyatının, qrammatik konstruksiyaların köməyi

---

[7] Dəmirçizadə, Ə.M. Müasir Azərbaycan dili./4 hissəli, I hissə, Fonetika, orfoepiya, orfoqrafiya./ Dəmirçizadə, Ə.M. –Bakı: –1984.– 312 s.

[8] Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-IV siniflər) / – Bakı: – 2008. – s. 13.

[9] Yenə orada, – s.13.

ilə yerinə yetirilir. Bu səbəbdən də ibtidai siniflərdə oxu materialları üzərində işin aparılması, dil hadisələrinin müşahidəsi, lüğət ehtiyatının zənginləşdirilməsi vacibdir. İbtidai sinif şagirdləri tədris prosesində dil hadisələri ilə müxtəlif məqamlarda qarşılaşırlar. Onlar cümlələr üzərində qrammatik dəyişikliklərin, fonetik yerdəyişmələrin, uyğunlaşma və fərqləşmələrin baş verdiyini, sözlərin düşdüyü vəziyyətdən asılı olaraq, müxtəlif mənalarda öyrənildiyini, habelə üslubi-leksik, üslubi-qrammatik mənaların yarandığını müşahidə edirlər. Bunlar ya məqsədli, ya da digər məqsədləri həyata keçirərkən qarşıya çıxır. Dil dərslərində müşahidələr əsasında danışmaq və ya yazmaq bacarıq və vərdişləri yaranır. Müşahidə sözü görünənlərdən yaranır. Ağacların müşahidəsi, canlı-cansız aləmin müşahidəsi təsəvvürlərə, təsvirə əsas verir. Təsəvvürdə canlı seyr nümunəsi olmadan nə konkret, nə də mücərrəd varlıqlar təsvir oluna bilməz. Buna görə də müşahidə obyekti üzərində aparılan əməliyyatlar həm tədqiqi, həm də təlimi xarakter daşıyır. Oxu materiallarında və ya dinləmə materiallarında dil qaydaları əlavə məzmun xəttidir. Deməli, oxu materiallarında Azərbaycan dilində bütün məzmun xətlərinin müşahidəsini təşkil etmək olar.Bu mənada tədqiqatın obyekti daha genişdir.

Tədqiqatlar göstərir ki, metodist alimlərimizdən Ə.Əfəndizadə[10], Y.Kərimov[11], N.Abdullayev[12], S.Vəliyev və başqaları ümumtəhsil məktəblərinin müxtəlif səviyyələrində dilimizin leksikasının tədrisi, şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi və ümumilikdə, nitq mədəniyyətinin formalaşdırılması məsələləri ilə bağlı geniş aspektli araşdırmalar aparmışlar.[13]

---

[10] Əfəndizadə,Ə. Azərbaycan dili təliminin metodik prinsipləri haqqında // Azərbaycan dili və ədəbiyyat tədrisi./Əfəndizadə, Ə.–Bakı: –1986.– №1.–s.112.

[11] Kərimov,Y.Ş.İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları./ Kərimov, Y.Ş. –Bakı: –1967. .–s. 112

[12] Abdullayev,N.Ə. Nitq mədəniyyətinin əsasları/ N.Ə.Abdullayev./–Bakı: –2013.–s. 112

[13]Велиев, С.И. Система работы по синонимике в преподавание Азербайджанского языка (4-8 классы)/автореф. дисс. канд. педаг. наук. Велиев, С.И. –Баку: –1985.–с.24

**Tədqiqatın obyekti**. Tədqiqatın obyekti ibtidai siniflərdə oxu materiallarının tədrisidir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti I-IV siniflərdə oxu materialları üzərində dil hadisələrinin müşahidəsinin təlimin keyfiyyətinə təsirini araşdırmaqdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi I-IV siniflərdə oxu materialları üzərində dil hadisələrinin müşahidəsinin təlimin keyfiyyətinin artırılmasında əhəmiyyətini üzə çıxarmaq üçün imkan və yolları müəyyənləşdirmək, müəllimlərə və gənc tədqiqatçılara müəyyən istiqamət verməkdir. Müəyyənləşdirilmiş məqsədi həyata keçirmək üçün tədqiqatın qarşısına aşağıdakı vəzifələr qoyulmuşdur:

1) Oxu materialları üzərində dil hadisələrinin müşahidəsi ilə əlaqədar standartların təhlili;
2) Müşahidə metodunun didaktik imkanlarının öyrənilməsi;
3) Problemin metodik ədəbiyyatlarda, tədris proqramında, dərslik və dərs vəsaitlərində həlli səviyyəsinin araşdırılması;
4) Problemlə əlaqədar məktəb təcrübəsində vəziyyəti öyrənərək ümumiləşdirilmələr aparılması;
5) Problemin pedaqoji və psixoloji əsaslarının, habelə prinsiplərinin işlənib hazırlanması;
6) Problemin Azərbaycan dili fənn proqramı (kurikulumu) və bu əsasda tərtib olunmuş dəsrliklərdə qoyuluşu və reallaşdırma imkanlarını araşdırmaq, müsbət və çatışmayan tərəflərini üzə çıxarmaq;
7) İbtidai siniflərdə oxu materialları üzərində dil hadisələrinin müşahidəsinin səmərəli yollarını işləyib hazırlamaq və s;

Tədqiqatın fərziyyəsi isə belədir ki, oxu materialları üzərində dil hadisələrinə dair müşahidələrin didaktik cəhətdən düzgün və sistemli aparılması, şagirdlərin nitq və təfəkkürünün inkişafına müsbət təsir göstərməlidir.

**Tədqiqat metodları.**Tədqiqatın metodoloji əsasını pedaqoji prosesin düzgün aparılması, təşkili, müasir təlim metodlarından istifadə, şagirdlərin psixi inkişafının qanunauyğunluqları təşkil edir. Bundan əlavə tədqiqatda müasir təlim texnologiyalarının verdiyi imkanlar daxilində oxu materiallarında dil hadisələri üzərində

müşahidənin bu gün üçün zəruri olan təşkili metodikasından bəhs edilir. Aşağıdakı tədqiqat metodlarından istifadə olunmuşdur:

1.Nəzəri təhlil. Bu metod vasitəsilə pedaqoji, psixoloji, linqvistik və metodiki ədəbiyyat təhlilə cəlb edilərək, tədqiq edilən problem üçün əhəmiyyətli bilinən fikir və mülahizələr əsas olaraq götürülmüş, proqram və dərsliklərdə qoyuluşu ilə yanaşı, işlənmə səviyyəsi də müəyyənləşdirilmiş, ümumiləşmiş nəticəyə gəlinmişdir.

2. Müşahidə. Respublikanın ayrı-ayrı bölgələrində, o cümlədən Quba məktəblərində (Quba şəhər 1, 2, 4, 6 saylı tam orta məktəblərində, Quba rayonu Alekseyevka, Amsar, Aşağı Xuc, Aşağı Atuc, Alpan kənd tam orta məktəblərində) ibtidai siniflərdə oxu materiallarında dil hadisələri üzərində müşahidə aparılmış, dil dərsləri dinlənilmiş, konkret nəticələr çıxarılmışdır.

3. Müsahibə. Müsahibə metodundan əldə etdiyimiz məlumat və faktları müqayisəsində 400 nəfərdən artıq şagird, 100 nəfər müəllim iştirak edib, 50 nəfər müəllimlə anket sorğusu keçirilmişdir.

4. Məktəb sənədlərinin öyrənilməsi. İbtidai sinif müəllimlərinin tədqiq etdiyimiz problemlə əlaqədar fəaliyyətlərini öyrənmək məqsədilə müəllimlərin proqram materiallarını necə planlaşdırdıqları, sinif jurnallarını, sinifdənxaric işləri necə təşkil etdikləri və digər məktəb sənədlərini necə doldurduqları nəzərdən keçirilmişdir.

5. Pedaqoji eksperiment: İşçi fərziyyə müddəalarını yoxlamaq məqsədilə eksperiment təşkil edilmişdir və bu eksperiment 3 mərhələdə həyata keçirilmişdir. Eksperimentə Quba şəhərinin 1, 2, 4, 5, 6 saylı tam orta məktəbləri, Quba rayonu (Alekseyevka, Amsar, Aşağı Xuc, Alpan) kənd tam orta məktəbləri cəlb edilmişdir. 2015/2016-cı tədris ilində 512 şagirdi əhatə edən 22 sinifdə test və mətn nümunələri üzərində işlər vasitəsilə yoxlayıcı eksperiment keçirilmiş və irəli sürülən metodikanın səmərəliliyi üzə çıxarılmışdır.Yəni tədqiqatın nəticələri yenidən həmin məktəblərdə sınaqdan keçirilmişdir.

6. Riyazi və statistik metodlar. Pedaqoji eksperiment və sorğu zamanı əldə edilən nəticələrin rəqəm və faiz göstəriciləri tutuşdurulmuş, nisbət göstəriciləri müqayisə edilmiş, irəli sürülən ideya və mülahizələrin səmərəlilik səviyyəsi şərh edilmişdir.

Tədqiqat işi üç mərhələdə həyata keçirilib ki, birinci mərhələdə problemin metodik ədəbiyyatda, proqram və dərsliklərdə qoyuluşu, növbəti mərhələdə məktəblərdə oxu materialları üzərində dil hadisələrinin müşahidəsi və nəhayət sonuncu mərhələdə isə pedaqoji eksperiment keçirilməklə tətbiq olunan işin səmərəliliyi yoxlanılmışdır.

**Müdafiəyə təqdim edilən əsas müddəalar.**

1. İbtidai siniflərdə Azərbaycan dili fənninin tədrisi zamanı oxu materialları üzərində dil hadisələrinin müşahidəsinin məqsədyönlü, ardıcıl və sistemli keçirilməsi mümkündür və bunlar şagirdlərin nitq və təfəkkürünün lazımı səviyyədə inkişafını təmin edir.
2. Rabitəli mətnlər üzərində müşahidələr şagirdlərdə ifadəni inşaya, nəzmi nəsrə və ya əksinə nəsri nəzmə çevirmək bacarıq və vərdişlərini formalaşdırır.
3. Oxu materialları üzərində dil hadisələrinin məqsədli müşahidəsinin təlim fəaliyyətinin keyfiyyətinə müsbət təsir göstərir.

**Tədqiqatın elmi yeniliyi.** İbtidai siniflərdə oxu materiallarında ilk dəfə dil hadisələri üzərində müşahidələrin təlimin keyfiyyətinə təsiri öyrənilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.**

- tədqiqatdan alınan nəticələr dil tədrisi metodikasını yeni elmi müddəalarla zənginləşdirmişdir;
- ibtidai siniflərin oxu materiallarında dil hadisələri üzərində müşahidənin təlimin keyfiyyətinə təsirinin öyrənilməsinə xidmət edən tapşırıqlar didaktik baxımdan qruplaşdırılmış və izah olunmuşdur;
- şagirdlərin sözlə işləmək bacarıqlarının formalaşmasında mühüm rol oynayan təlim üsulları müəyyənləşdirilmişdir;

**Tədqiqatın praktiki əhəmiyyəti.** Azərbaycan dili fənn proqramında (kurikulumunda) oxu və dil qaydalarının məzmun xətlərinə aid bəzi alt standartların daha dolğun ifadə olunması ilə bağlı konkret təkliflər verilmiş, I-IV sinif dərsliklərinin təkmilləşdirilmə imkanları göstərilmişdir. Aldığımız nəticələrə əsasən demək mümkündür ki, tədqiqatın nəticələri ali və orta ixtisas pedaqoji məktəblərinin

müəllimlərinə, tədqiqatçılara praktik kömək olacaqdır. Tədqiqatın nəticələrindən yeni tədris proqramlarının, sillabusların, dərsliklərin, dərs vəsaitlərinin təkmilləşdirilməsi prosesində istifadə etmək mümkündür. Tədqiqat işində həmçinin təlim prosesinin daha maraqlı və fəal təşkili məqsədilə fənn müəllimlərinə tövsiyələr verilmişdir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın ümumi nəticələri və əsas müddəaları ali məktəb müəllimlərinin uyğun fənlər üçün hazırlanan tədris tematik və fənn planlarında (sillabuslarda), respublika və beynəlxalq səviyyəli konfranslardakı məruzələrdə, xarici və yerli jurnallarda çıxan məqalələrdə realizəsini tapmışdır. Ümumi nəticə və müddəalar "Müəllim hazırlığının müasir problemləri: təhsildə elmi və texnoloji innovasiyalar" adlı II Beynəlxalq Elmi konfransında (Azərbaycan Müəllimlər İnstitutu, Bakı, 26-28 noyabr 2012-ci il), Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Doktorantların və gənc tədqiqatçıların XXI Respublika Elmi Konfransı"nda (BDU, 24-25 oktyabr 2017-ci il), "Dayanıqlı inkişaf və humanitar elmlərin aktual problemləri" adlı beynəlxalq elmi konfransda (Azərbaycan Universiteti, Bakı, 14-15 may 2018-ci il), "Taras Shevchenko 5th İnternational Congress on Social Sciences" adlı beynəlxalq elmi konfransda (Kiev, 8-10 may 2020), "İnternational Paris Conference on Social Sciences" adlı beynəlxalq elmi konfransda (Paris, 7-8 fevral 2021-ci il) edilən məruzələrdə öz əksini tapmışdır. Ümumiyyətlə, araşdırılan problemin mahiyyəti, təklif olunan iş metodikası respublika və respublikadan kənarda dərc edilən dövri jurnallarda əks olunmaqla 15 məqalədə əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya "Giriş"-14219 işarə,"Problemin ümumi məsələləri" adlı I fəslin 1.1.-ci "Məsələnin metodik ədəbiyyatda qoyuluşu" -36850 işarə, 1.2."Məsələnin proqram və dərsliklərdə qoyuluşu" -14761 işarə, 1.3."Məktəbdə vəziyyətin təhlili"-25733 işarə, "Oxu dərslərində dil hadisələri ilə bağlı aparılan müşahidələrin təlimin keyfiyyətinə təsiri" adlı II Fəslin - 2.1.

"Azərbaycan dilindən təlimin yeni məzmununda dil hadisələrinin yeri və rolu" 20074 işarə, 2.2. "Oxu materialları üzərində dil hadisələri ilə bağlı müşahidələrin təşkili metodikası"–58362 işarə,2.3. "Eksperimentin təşkili və keçirilməsi"25465 işarə, Nəticə - 6167 işarə, İstifadə edilmiş ədəbiyyat siyahısı 14 000 işarə, cəmi isə 215631 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, işlənmə dərəcəsi müəyyənləşdirilir, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodoloji əsasları açıqlanır, müdafiəyə çıxarılan əsas müddəaları sadalanır, tədqiqatın elmi yeniliyindən, nəzəri və praktiki əhəmiyyətindən bəhs edilir, işin aprobasiyası, strukturu və həcmi haqqında məlumat verilir.

**"Problemin ümumi məsələləri"** adlanan birinci fəsil 3 paraqrafa ayrılır. **"Məsələnin metodik ədəbiyyatda qoyuluşu"** adlı birinci paraqrafda yerli və xarici metodistlərin əsərlərində tədqiqat ilə əlaqədar gəlinən nəticələr araşdırılır, təhsilimizdə aparılan islahatların əhəmiyyəti, bu islahatların gətirdikləri yeniliklər, mübahisəli məqamlar üzərində geniş dayanılır. Belə qənaətə gəlinir ki, təhsilin bütün nailiyyətləri onun məzmununun necə işlənməsindən asılıdır. Azərbaycan dili kurikulumları məhz bu problemin yeni tələblər zəminində hazırlanmasını təmin edir. Bu paraqrafda I-IV siniflərdə Azərbaycan dili fənninin tədrisində öyrədən və öyrənənlərin qarşısına qoyulan əsas məqsəd şagirdlərə oxu, yazı, həmçinin qrammatik bacarıqlar üzrə bilik, bacarıq və vərdişlər qazandırmaq, öz fikirlərini şifahi və yazılı şəkildə ifadə etmək qabiliyyəti aşılamaqdır. Təlimin məzmunu da bu prinsipə görə hazırlanmışdır.Deməli, məzmunu müəyyən edən strateji məqsəd ola bilər. Məzmun isə məqsəd deyildir. Həmin məzmunu dərsliklərdə realizə etmək üçün, dövlətin qarşıya qoyduğu standartlar fənn standartları şəklində realizə olunmalıdır. Standartlar əsasında dərsliklər hazırlanır. Dərsliklər əsasında isə fənn standartlarının realizəsi üçün metodik vəsaitlər tərtib edilir.Təlim prosesində hər bir müşahidə materialı rabitəli mətnlərdən başlayır. Uşaq həyatı, müşahidə ilə öyrəndiyi kimi, təlim də müşahidə ilə başlayır. Canlı

seyr hər şeydən qabaqdır. Lakin bu seyr məqsədyönlüdür, inkişafetdiricidir və idarə edilir. Bu idarəçilik isə müəllimin nəzarəti altındadır. Azərbaycan dilindən elə bir təlim vahidi və ya təlim materialı yoxdur ki,(məsələn, səs, fonem, söz birləşməsi, cümlə, habelə, onlarla bağlı nitqin hissələri, onun əsas və köməkçi formaları, yaxud da cümlə üçün bilavasitə və ya bilvasitə əsaslı situasiyalardan biri) diqqətdən kənarda qalsın. Dildə müşahidə dinləmə, oxu və təhlil zamanı qarşıya çıxır. Bunlar dil hadisələrindən ibarət olur.

Dil hadisələri haqqında dilçilərimizin kitablarındakı bəzi aspektlərə diqqət edək. Dilin milli xüsusiyyətləri əsasında yaranan fonetik hadisə və qanunlar, xüsusilə başqa dillərdən alınma sözlərin dilimizə uyğunlaşdırılmasında əhəmiyyət kəsb edir. Müasir Azərbaycan dilində assimilyasiya, dissimiliyasiya, səsartımı, səsdüşümü, Ahəng qanunu, yerdəyişmə və cingiltiləşmə qanunu kimi fonetik hadisə və qanunlar tədricən yaranmışdır. Biri ünsiyyətin vasitəsi, digəri isə bu vasitənin işlənməsi olmaqla dil və nitq iki müxtəlif hadisədir. Nitqdə və dildə baş verən hadisələr bir biri ilə qarşılıqlı əlaqədədir. *“Dili həm əməli məqsədlərlə öyrənmək, həm də nəzəri məqsədlərlə tədqiq etmək üçün onun maddi hissəsini, yəni səsləri bilmək, səslərlə əlaqədar bir sıra hadisələri və qanunları başa düşmək zəruridir.* ”[14] Beləliklə, dissertasiyada qeyd edilir ki, fonetik, leksik və qrammatik mənalı dil hadisələrinin coğrafiyası geniş və əhatəlidir. Mədəni nitqi dil hadisələrinin normativ aktları əsasında qurmağın imkan və yollarını ibtidai siniflərdən araşdırmaq üçün müşahidələr təşkil etmək lazımdır. Mədəni nitq dil normalarının bütün səviyyələrində, yəni fonetik, leksik, qrammatik və üslubi səviyyələrində qurulan danışığa və yazıya deyilir. Mədəni nitqə bir sıra tələblər qoyulur ki, bu tələblər nitqin gözəlliyini, axıcılığını, aydınlığını şərtləndirir.Mərhum professor Əziz Əfəndizadənin dili ilə desək: *“Nitqin ifadəliliyini yalnız şifahi danışıq gözəl əks etdirə bilər. Söz özünün ən güclü təsirini, öz əlvan qiyafəsin yalnız şifahi nitqdə tapmağa qadirdir. Əgər söz yazılı nitqdə açılmamış*

[14] Dəmirçizadə, Ə.M.Dil və dilin fonetik vahidləri./ Dəmirçizadə, Ə. M.–Bakı: –1965. –39 s.

*qönçədirsə, şifahi nitqdə isə ətirli bir çiçəyə çevrilir.”*[15] Dissertasiya işində bu müddəaları əsaslandırmaq üçün dərslərə aid xeyli nümunələr, çalışmalar verilir və onların təlim prosesində tətbiqi əsaslandırılır.

Birinci fəslin ikinci paraqrafı **“Məsələnin proqram və dərsliklərdə qoyuluşu”** adlandırlır. Bu paraqrafda göstərilir ki, proqram və metodik vəsaitlərdə dil hadisələri deyəndə fonetik, leksik və qrammatik hadisələr nəzərdə tutulur ki, onların da dərk olunması üçün induktiv hazırlıqlar lazım gəlir. Çünki şagirdlər həmin hadisələri deduktiv yolla mənimsəyə bilməzlər. Kurikuluma qədərki proqram və dərsliklərdə də bu kimi dil hadisələrindən, eyni zamanda yazıda q, k, samitlərindən q-nın ğ-ya, k-nın y-ya keçməsi və yaxud da ğ-nın x–ya keçməsi hallarının mənimsədilməsi didaktikasından bəhs olunurdu. Azərbaycan dili kurikulumunda da bu məsələlər savadverici faktlar kimi nəzərdə tutulur. Tədqiqatda müxtəlif ədəbiyyatdan nümunə olaraq qeyd olunmuş fonetik, sintaktik dil hadisələri maraq doğurur. Dilimizin fonetik quruluşunda geniş yayılmış fonetik hadisələr və bu hadisələrin təzahür forması tədqiqatda öz əksini tapır.(Məsələn, Uyuşma-Assimilyasiya hadisəsi: Tam uyuşma, Yarımçıq uyuşma, Geri uyuşma. Səsartımı –Proteza hadisəsi: Proteza, Anaptiksis, Epenteza, Lyezon. Səsdüşümü – Eleziya hadisəsi: Absorbsiya, Apakopa, Afarezis, Qaplologiya, Diereza, Eleziya, Sinkopa, Reduksiya. Səsfərqləşməsi-Dissimilyasiya hadisəsi: Tam fərqləşmə, Yarımçıq fərqləşmə, İrəli fərqləşmə, Geri fərqləşmə. Yerdəyişmə – Metateza hadisəsi: Kvantitativ metateza, Məsafəli metateza, Sadə metateza.) Eyni zamanda, dissertasiyada qeyd edilir ki, Azərbaycan dili təlimi fonetika haqqında məlumatla başladığına görə bu bölmənin düzgün elmi-metodik zəmində tədrisi digər dil hadisələrini öyrənməyə şüurlu münasibət, fənnə məsuliyyətlə yanaşmaq, sadə elmi təfəkkür və təhlil, dil hadisələrindən baş çıxarmaq qabiliyyətinin formalaşmasına yönəldilməlidir. Ə.Dəmirçizadənin bu kimi məsələlərlə bağlı mülahizələrində vurğuladığı kimi *”Hər bir mədəni adam nitq*

[15] Əhmədov, A.A.Ümumi təhsil sistemində kurikulum islahatı:real nəticələrə doğru.Bakı: Kurikulum jurnalı. 2008,№2,128 s

*mədəniyyətinə yiyələnmək üçn əvvəlcə dilin fonetik əsaslarını bilməlidir."*[16]

Müasir dərsliklər mətn oxusu üçün nəzərdə tutulan materialların hərtərəfli dərk olunması məqsədi ilə motivasiya edilir, məzmuna keçid başlayır, bu mətnlərin nitqdəki rolu və əhəmiyyəti diqqətə çıxarılır. Hesab edilir ki, mətnlər I-IV sinif şagirdlərinin nitqini qurmaq üçün bir nümunə ola bilər. Mətn materialı üzrə iş dilin ictimai funksiyasının göstəricisi sayıldığından, hazırda çox düzgün olaraq ön plana çəkilmişdir. Çünki bu proses nitqdən dilə, dildən nitqə keçidetmə prosesidir. Dil qaydaları həmin oxu materialı üzrə müşahidələrdən çıxarılan nəticələr olmalıdır. Beləliklə də, Azərbaycan dili dərslikləri dövlətin fənn standartlarına uyğun olaraq rabitəli mətn materialları ilə başlayır. Mətn materialı hər hansı bir nitq nümunəsidir. Bu materiallar bədii, publisistik, elmi və digər üslublarda ola bilər. Çünki insan bütün üslublarda nitq söyləyir. Həmin nitq parçaları bölmələr və mövzular üzrə qruplaşdırılmışdır. Mövzusu giriş, əsas hissə və nəticəsi olan oxu materialları imkan verir ki, şagirdlər nitqin strukturunun obyekti kimi müşahidə və təhlil etsinlər, buradakı məzmunu öyrənsinlər və danışsınlar. Ən nəhayət, özləri də bu tipli inşa qura bilsinlər. Beləliklə, biz I-IV siniflər üçün Azərbaycan dili dərsliyindəki mətnlərdən seçdiyimiz nümunələr əsasında bu nəticəyə gəldik ki, cümlələri müşahidə obyektinə çevirərək, onların mənaları üzərində fonetik, leksik və qrammatik semantizasiya aparmaqla şagirdləri müstəqil müşahidələr əsasında zəruri nəticələrə gəlməyə alışdırmış oluruq. Qabaqcıl təcrübədə bunlar var. Dərsliklərdə yeri gəldikcə belə təhlillər keçirilir.

Birinci fəslin ikinci paraqrafı **"Məktəbdə vəziyyətin təhlili"** adlanır. Bu paraqrafda məktəblərdə dil hadisələri ilə bağlı vəziyyəti öyrənmək üçün bir sıra nəticələrə müraciət etmək lazım gəlir. Bunlara linqvistik ekskursiyalar, dərslərin dinlənilməsi, şagirdlər və müəllimlərlə aparılan söhbətlər, sinifdə tətbiq olunan müxtəlif

[16] Dəmirçizadə, Ə. M./Müasir Azərbaycan dili./ Dəmirçizadə, Ə. M. – Bakı:–1984.–306 s.

qrammatik əyləncəli oyunlar, dil hadisələrini aşkara çıxara biləcək çalışmalar vasitəsilə çıxan nəticələr aiddir.

Məktəblərdə mövcud məsələ ilə əlaqədar vəziyyət təkcə müəllimlərdən asılı deyil. Ədəbi tələffüz vərdişlərinin aşılanmasında məktəbin texniki avadanlıqlarla təchizatı, internetdən düzgün və səmərəli istifadə, məktəbdə səs qeydiyyatı üçün lazımi cihazların olması, valideynlərlə işin təşkili də rol oynayır. Məktəblərdə vəziyyəti öyrənmək üçün müəllimlərlə tədqiqata uyğun mövzularda söhbətlər aparılmış, dərslər dinlənilmişdir.

Dissertasiyanın **"Oxu dərslərində dil hadisələri ilə bağlı aparılan müşahidələrin təlimin keyfiyyətinə təsiri"** adlandırılan ikinci fəsli üç paraqrafdan və ikinci paraqraf isə daha iki hissədən ibarətdir. İlk paraqraf **"Azərbaycan dilindən təlimin yeni məzmununda dil hadisələrinin yeri və rolu"** adlanır. Paraqrafda belə fikir əsaslandırılır ki, mərhələlərlə gedən öyrənmə prosesində dil və düşüncə, nitq və təfəkkür, söz və məhfum dialektik vəhdətinin qanunauyğunluqlarını öyrənmək, həm də dili tədqiq etmək üçün vacibdir. Məlumdur ki, dilin bir məfhum, norma, qrammatik kateqoriya kimi öyrənilməsi prosesi ibtidai siniflərdən başlanır. Belə bir şəraitdə ibtidai sinif müəlliminin daha dərin hazırlığa malik olması, Azərbaycan dilinin nəzəri məlumatlarını dərindən bilməsi, öyrənmə və öyrətmə metodikasının rəngarəngliyi böyük əhəmiyyət kəsb edir. Geniş dünyagörüşünə malik, intellekt qabiliyyətli, təfəkkürü inkişaf edən, yeniliklərdən baş çıxara biləcək gənclərin hazırlanması təkcə alimlərin araşdırmaları və bu araşdırmaların tətbiqi nəticəsində mümkün ola bilməz. Bunun üçün müəllimlər də mütəmadi tədqiqat xarakterli, məqsədyönlü müşahidələr qurmağı və nəticələr əldə etməyi bilməlidirlər. İbtidai təhsil cəmiyyətin inkişafında mühüm rola malik olduğuna görə ilk elmi-pedaqoji təcrübələr bu bazada ümumiləşdirilmiş, ilk elmi-pedaqoji ideyalar onun məzmunu, metodları və təlim texnologiyalarının səmərəlilik səviyyəsində genişlənməsinə təsir göstərmişdir. Bu səbəbdən də ibtidai siniflərdə təlimin keyfiyyətinin məqsədyönlü yüksəldilməsi bilavasitə özlərindən yuxarı siniflərə təsir göstərir, təlimin nəticəsinin daha yüksək olmasına xidmət edir. Məlum olduğu kimi, ibtidai siniflərin hazırda tətbiq olunan fənn kurikulumlaında şagirdlərin 4 il

müddətində Azərbaycan dili fənni üzrə əldə edəcəyi nəticələr 4 məzmun xətti üzrə müəyyənləşir, hansı ki, həmin məzmun xətti ümumi təhsildə fənn üzrə təlimin bütün mərhələlərini ifadə edir:

- Dinləyib anlama və danışma
- Oxu
- Yazı
- Dil qaydaları

Bu məzmun xətləri bir-biri ilə spiralvari şəkildə bağlıdır. Yəni şagird oxuduğu mətni dinləyib anlamağı, fikrini yazılı və şifahi ifadə etməyi bacarmalı, Azərbaycan dilinin zəruri dil qaydalarını mənimsəməyi, tətbiq etməyi, şəxsiyyət kimi nitqi ilə özünü təsdiq və təqdim etməyi bacarmalıdır. Y.Ş. Kərimov dediyi kimi: "*Nitq mədəniyyətinin yüksək səviyyəsi yalnız onun dilinin bütün cəhətləri (fonetika, leksika, söz yaradıcılığı, morfologiya, sintaksis, orfoqrafiya, üslubiyyat) ilə təbii surətdə birləşdirilməsi şəraitində təmin edilə bilər*"[17]

İkinci fəslin **"Oxu materialları üzərində dil hadisələri ilə bağlı müşahidələrin təşkili metodikası"** adlı ikinci paraqrafında tədqiqatlara və təcrübəyə əsaslanaraq qeyd edilir ki, ibtidai siniflərdə mətn materialları üzərində dil hadisələrinin müşahidəsinin Azərbaycan dili dərslərində həyata keçirilməsi məqsədəuyğun hesab edilir. Azərbaycan dili şagirdin söz ehtiyatını yeni söz və ifadələrlə zənginləşdirir, nitqin məntiqi, ardıcıl və rabitəli qurmaq vərdişi yaranır. Şagird, Azərbaycan dili vasitəsilə hafizəsini, diqqətini, tənqidi təfəkkürünü, düşünmə qabiliyyətini inkişaf etdirir, onda həm yaradıcı təxəyyül, həm də idrak bacarığı formalaşır. Azərbaycan dilində "*mətn üzrə iş kompleks əməliyyatlarla qurulan didaktik prosesdir. Bu proses dinləmək, anlamaq, oxumaq, yazmaqla və bunların təkrarları ilə başa gələn nitqdir. Mətn nitq parçası deməkdir. Nitq parçası ilə dil təliminin – nitq mədəniyyətinə yiyələndirmək strategiyasıdır.*"[18]

---

[17] Kərimov, Y.Ş. Ana dilinin tədrisi metodikası. /Kərimov, Y.Ş. Bakı: –2005.–519 s.

[18] Qurbanov, V.,Xalıqov, F., Abbasova, S. Azərbaycan dili və nitq mədəniyyətinin əsasları./ Qurbanov, V.,Xalıqov, F., Abbasova, S. –Bakı:–2018.–185 s.

İbtidai siniflərdə oxu materiallarında dil hadisələri üzərində müşahidəni təşkil etmək üçün təbii ki, fəal təlim metodlarına müraciət etmək daha səmərəli nəticə verir. Oxu prosesində dil hadisələrini müşahidə etməyə başlamazdan əvvəl müəllim mövzunun əsas ideyasını, özünün və dərsin məqsədlərini, mühüm anlayışları qabaqcadan müəyyən etməlidir.

İkinci paraqrafın I hissəsi **"Oxu prosesində orfoepik orfoqrafik hadisələr üzrə işlər"** adlanır. Azərbaycan ədəbi dilinə aid qayda-qanunlar müəyyən yol keçib, tarixi təkamülün nəticəsində yaranıb, hazırda cəmiyyətin normal, düzgün ünsiyyətinə xidmət edir. Şagirdləri düzgün nitqə yiyələndirmək, orfoepik vərdişlərlə silahlandırmaq üçün müəllim özü də orfoepiya və orfoqrafiya qaydalarını mükəmməl bilməli, tədris prosesində onları şagirdə mənimsətməyi bacarmalıdır. Bundan əlavə şagirdlərlə oxunun ifadəliliyi, sürəti, düzgünlüyü, şüurluluğu, həmçinin oxu materiallarının obrazlı dli üzərində metodiki işin təşkilini sistemli, məqsədyönlü və müntəzəm aparmağı bacarmalıdır. Bu hissədə qeyd olunur ki, ibtidai siniflərdə şagirdlərin yaş və maraq səviyyələrinə uyğun seçilmiş oxu materialları üzərində düzgün ədəbi tələffüz və ifadəli oxu vərdişlərinin inkişafı istiqamətində məqsədyönlü işlər aparılmalıdır. Görülən işlərlə bərabər şagirdlərin müntəzəm olaraq söz birləşməsi, həmçinin cümlə qurmaq kimi vərdişlərinin inkişafı, onların rabitəli nitqinin inkişafı izlənilməli, şagird öz nitqinə yaradıcı yanaşmağı bacarmalıdır. Bu zaman şagird nitqində qüsurlara, şivəçilik meyllərinə yol vermir, fikrini hamının başa düşəcəyi bir şəkildə ifadə etməyi öyrənir.İbtidai siniflərdə Azərbaycan dilinin tədrisinin başlıca prinsipi nitq inkişafıdır. Nitq inkişafında morfologiyanın orfoqrafiya və orfoepiya ilə əlaqəli tədrisinin məqsəd və əhəmiyyəti özünü daha qabarıq göstərmiş olur. Şifahi və yazılı nitq vərdişlərinə istənilən səviyyədə yiyələnmək üçün nitqimizdə səsləndirdiyimiz ayrı-ayrı nitq hissələrinə mənsub olan sözlərin düzgün yazılışını və tələffüzünü bacarmaq çox vacibdir.

İkinci paraqrafın II hissəsi **"Oxu prosesində leksik-qrammatik işlər"** adlanır. Azərbaycan dilinin orfoqrafiya qaydaları ibtidai siniflərdə əsasən sait və samitlərin, şəkilçilərin yazılışı, həmçinin sözün tərkibində qoşa sait və samitlərin yazılışı, miqdar

saylarında istifadə olunan şəkilçilərin yazılışı, mürəkkəb sözlərin düzgün yazılışı, ixtisarların, köməkçi sözlərin bitişik və ayrı yazılışı, birinci hərfi böyük yazılan sözlər, təkhecalı və çoxhecalı sözün sətirdən sətrə düzgün keçirilməsi kimi bir sıra aşağıdakı məsələləri əhatə edir. Ibtidai siniflərdə mətn materialları üzərində orfoqrafik işlərin aparılmasının ilk şərti şagirdləri orfoqrafiya qaydaları ilə tanış etməkdir. Şagird tələffüz etdiyi sözlərin yazılışındakı fərqləri və ya eyniliyi başa düşməlidir. İbtidai siniflərdə oxu materiallarında dil hadisələri üzərində müşahidələrin düzgün qurulması təlimin keyfiyyətini əsaslı şəkildə yüksəldir.

Dissertasiyanın II fəslinin III paraqrafı **“Eksperimentin təşkili və keçirilməsi”** adlanır. İbtidai siniflərdə mətn materialları üzərində dil hadisələrinin müşahidəsinin təlimin keyfiyyətinə təsiri həm də şagirdlərin mədəni nitqinin formalaşması deməkdir.Mədəni nitq dil normalarının bütün səviyyələrində, yəni fonetik, leksik, qrammatik və üslubi səviyyələrində qurulan danışığa və yazıya deyilir. İbtidai siniflərdə oxu materialları üzərində fonetik, leksik, qrammatik və sintaktik vahidlərdən dil hadisələrinin müşahidəsinin təşkili ümumilikdə şagirdlərin düzgün oxu vərdişlərinin inkişafında mühüm rol oynayır. Düzgün ədəbi tələffüz və dil hadisələri haqqında ətraflı nəzəri məlumata sahib olan müəllim, təbii ki, şagirdlərin nitq və təfəkkürünün inkişafında müsbət təsir göstərə bilər. Müəllim şagirdləri düzgün ədəbi tələffüzə yiyələndirmək məqsədilə mətni müşahidə, nümunəvi nitqi müşahidənin, rəngarəng üsul və vasitələrdən istifadə etmək yolu ilə optimal nəticələrə nail olmalıdır. Müqayisələr göstərir ki, ibtidai siniflərdə oxu materialları üzərində dil hadisələrinin müşahidəsinin təlimin keyfiyyətinə təsiri həm də şagirdlərin mədəni nitqinin formalaşması deməkdir. Mədəni nitq dil normalarının bütün fonetik, leksik, qrammatik və üslubi səviyyələrində qurulan danışığa və yazıya deyilir. Ümumilikdə ibtidai siniflərdə oxu materiallarında dil hadisələri üzərində müşahidənin təşkili şagirdlərin oxu texnikasının, ədəbi tələffüzünün və idrak qabiliyyətinin inkişafına təsir səviyyəsini yüksəltmək üçün məqsədyönlü şəkildə aparılmış pedaqoji eksperiment materiallarının təhlilini nəzərdən keçirmək lazım gəlir. Bu baxımdan irəli sürülmüş elmi-didaktik ideyaların müəyyənləşdirici, öyrədici və yoxlayıcı

olmaqla üç mərhələdə eksperimentdən keçirilməsi nəticələrin obyektivliyinə inam yaradacağını düşünürük.

Eksperimentə ayrı-ayrı və ya eyni məktəblərdən müəllimlər cəlb edilmişdir. Onlarla eksperimentlərin məqsədləri, vəzifələri haqqında söhbətlər aparılmış, dərslərin planlaşdırılması, müşahidələrin təşkil edilməsi ilə bağlı fikir mübadiləsi edilmişdir. Eksperiment zamanı təcrübəsi öyrənilən, tədqiqata fəal cəlb olunan müəllimlər bunlardır: Samara Fərzəliyeva – Quba şəhər 4 saylı tam orta məktəbin İbtidai sinif müəllimi, Mətanət Yusifova – Quba şəhər A.Məmmədov adına 2 saylı tam orta məktəbin İbtidai sinif müəllimi, Tovus Heybətova – Quba şəhəri 4 saylı tam orta məktəbin İbtidai sinif müəllimi, Gülşən Balayeva – Alpan kənd tam orta məktəbin İbtidai sinif müəllimi, Cəmilə Əlibalayeva – Quba rayonu Amsar kənd tam orta məktəbin İbtidai sinif müəllimi, Sevil Allahverdiyeva – Quba rayonu Alekseyevka kənd tam orta məktəbin İbtidai sinif müəllimi, Nərmin Abdullayeva – Quba şəhər 6 saylı tam orta məktəbin İbtidai sinif müəllimi və s. Eksperimentin etibarlılığını təmin etmək məqsədi ilə kontrol və eksperiment siniflər oxşar şəraiti olan məktəblərdən seçilmişdir. Kontrol siniflərdə oxu, yazı və dil qaydalarına aid Azərbaycan dili dərsləri müəllimlərin öz metodikaları, habelə müəllim üçün vəsaitlərdən istifadə olunması ilə, eksperimental siniflərdə isə irəli sürdüyümüz metodik ideyalara uyğun texnologiya ilə aparılmışdır. Belə ki, eksperiment siniflərdə oxu və yazı təliminin məqsədi və oxu standartları dəqiqləşdirilmiş, motivasiya qaydaları əvvəlcə düzgün, şüurlu və ifadəli oxuya, daha sonra isə mətnlərin məzmununu mənimsənilməsində istifadə olunan optimal metodlardan istifadəyə hesablanmışdır.

Dissertasiya işində qeyd edilir ki, eksperimental siniflərdə intonasiya gözləməklə, düzgün ədəbi tələffüz normalarına əməl etməklə oxumaq məzmun standartı olduğu kimi, həm də məqsəddir. Təlimin məntiqi belədir ki, öyrənilən əsas mətnin məzmunu üzrə oxu sual-cavabla aparılan leksik-frazemik çalışmalar, habelə başlıca ideyanı müəyyənləşdirmə ilə bağlı işlər məzmunun yığcam və ya geniş nəql olunması ilə nəticələnməlidir. Kontrol siniflərdə belə təmrinlər aparılmır. Mətnə dair tapşırıqlar mətnin qavranılmasını nəzərdə tutmur, növbəti mətnə keçmək xüsusiyyəti daşıyır. Əlbəttə,

növbəti yardımçı mətn üzərində zəruri bacarıq və vərdişlər aşılanmır və nəql olunması nəzərdə tutulmur. Bütün bunlar məzmun standartlarının düzgün qurulmaması, habelə fəal təlim üsullarından məqsədəuyğun şəkildə istifadə edilməməsi ilə əlaqədardır.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat işindən əldə olunan aşağıdakı nəticə və qənaətlər öz əksini tapmışdır:

1. Müasir metodik anlamda oxu, müstəqil strategiya olduğu üçün həm də məzmun xəttidir. İbtidai siniflərdə oxu təlimi fəaliyyəti demək olar ki, digər fəaliyyətlərdən daha geniş məzmuna və həcmə malikdir. Çünki Azərbaycan dili dərslikləri oxu-mətn materialları ilə başlayır və bu proses digər fəaliyyətlərin başlanğıc nöqtəsi sayılır. Oxu prosesində dinləyib anlamaqdan danışmağa doğru idraki qapılar açılmış olur. Oxu rabitəli və rabitəsiz nitqə doğru güclü axın sayılır. Qiraətsiz birbaşa nitqə didaktik yol bağlıdır. Mətn isə danışmaq nümunəsidir.

2. I-IV siniflər üzrə Azərbaycan dili dərsliklərində bədii, elmi, həmçinin publisistik, məişət, hətta rəsmi-işgüzar üslublarda, təxminən 600-700 mətn var ki, həmin mətnlərin məzmunu üzərində iş nitqyönümlü qurulur. 4 məzmun xətti üzrə standartların reallaşdırılması şagirdin nitqinə hesablanır. Başqa sözlə, həmin mətnlərdə təsvir olunan hadisələr, ifadə tərzi, müraciətlər, münasibət qurmaları və s. şagirddə formalaşdırılacaq mədəni nitq üçün nümunəvi materiallar verir. I-IV sinif şagirdinin anlaya bilməyəcəyi, deməyi bacarmayacağı məsələlər həmin mərhələdən çıxarılır.

3. Hər hansı bir mətn parçası ifadə nümunəsidir, bu ifadələr inşaya çevrilmək, yəni şagirdin şifahi nitqindən yazılı nitqinə, və ya əksinə çevrilməkdən ötrü nəzərdə tutulmuşdur. Ona görə də Azərbaycan dili dərsliklərindəki ilin fəsillərinə, habelə hüquqi, siyasi, mənəvi, etik, estetik anlayışlara görə tərtib edilən mətnlər şagirdin nitqinə daxil edilmək üçün, nümunə məqsədi ilə nəzərdə tutulmuşdur. Həmin mətnlərin məzmunu üzərində şagirdlərin düşüncəsini təşkil etmək canlı seyrdir və bu seyrdən abstrakt təfəkkür prosesi asılı olur və nəticəsi təcrübə ilə yekunlaşır. Ona da tətbiqi proses və ya nitq təcrübəsi deyilir.Mətn özü qurulmuş bir sxemdir.Onun dərk olunması müşahidələrin necə aparılması, yəni şagird nitqinə necə çevrilməsi ilə ölçülür və qiymətləndirilir.

4. Apardığımız tədqiqatda biz, oxu materialı üzərində dil hadisələrinin müşahidəsindən bəhs edirik və bu zaman mətnin məzmunu üzrə etik, estetik, söz seçimi məsələlərinə deyil, dil hadisələrinin induksiyasını, yəni müşahidə olunmasını nəzərdə tutmuşuq. Mətn oxusu zamanı dil hadisələri kimi nitqdə işlənən söz və terminlərin leksik-semantik, fonetik, leksik, qrammatik və üslubi cəhətlərini araşdırmışıq. Çünki dil hadisələri üzərində müşahidələrdən alınan düzgün nəticələr şagirdlər üçün bir növ, tapntı, kəşf nümunəsi hesab olunur. Alınan nəticələr ədəbi dil normalarının nitqdə rolu haqqında təsəvvür yaratmaq üçündür.

5. Müəyyənedici eksperimentimizin nəticələri isə bizə bunları deməyə əsas verir ki, müşahidəsiz qurulan, şagirdin idrakına (təfəkkürünə) əsaslanmayan pedaqoji proses mədəni nitqə hesablanmamışdır və bu işin pedaqoji, psixoloji və metodik aspektləri kompleks araşdırılmalı və nəzəri ümumiləşdirmələr şəklinə salınmalı, metodik cəhətdən zənginləşdirilməlidir.

6. Həm də şagirdlərin müstəqil müşahidələri oxu, yazı, dil qaydaları məzmun xətləri üzrə qurularsa, onlar ədəbi dilin normalarına uyğun nitqə aid bacarıq və vərdişlərə yiyələnərlər.

7. Yuxarıdakı müddəalar əsasında da öyrədici eksperiment qurulmuşdur. Eksperimentin təşkil edildiyi məktəblərdə aparılan müşahidələr bir daha göstərdi ki, ibtidai siniflərin oxu materiallarında dil hadisələri üzərində müşahidənin düzgün aparılması və çıxarılan nəticələr təlimin keyfiyyətini əsaslı şəkildə artıra bilər. Bu fərziyyənin genişləndirilməsindən ötrü biz, şagirdlərin nitqinin müşahidə olunmasını və nəticələrin nəzərə alınmasını da fərziyyələrə daxil etdik. Çalışdıq ki, şagirdlərin nitqindəki dialekt qüsurları ilə ədəbi dil normaları arasındakı fərq aradan qalxmış olsun. Öyrədici eksperimentdə dil normaları ilə ölçü prinsipi düzgün qurulmuş oldu.

8. Öyrədici eksperiment zamanı mətni oxuyarkən ən çətin sözlərin leksik – frazemik semantikası (yəni kontekstə görə əvəzlənmə) şagirdlərin nitqinin sözlərlə zənginləşməsinə, nitqinin təkmilləşməsinə öz müsbət təsirini göstərməlidir.

9. Fonetik hadisələrdən səsəvəzlənməsi, səsdəyişməsi, səsartımı səsdüşümü və səsdəyişməsi kimi halların oxu zamanı müşahidə olunması şagirdlərin həm qiraətinə və həm də danışığına

müsbət təsir etməlidir. Xüsusilə də şagirdlərin oxusunda sonu d, t, z, r, s, c, g, n, m, ilə bitən sözlərə -lar, -lər , -lan,-lən, -laş,-ləş,-lı,-li,-lu,-lü, kimi şəkilçilər artırılanda baş verən fonetik hadisələrin (fonetik hadisələr) dərslərdə nəzərə alınması, habelə sonu -q və -k səsi ilə bitən sözlərə saitlə və samitlə başlanan şəkilçilər artırmaqla qurulan müşahidə prosesindən çıxarılan nəticələr sübutla, mühakimə ilə başa gəlir. Yoxlayıcı eksperimentlərimiz isə göstərdi ki:

a. İbtidai siniflərdə dil hadisələrini müşahidələrdən düzgün istifadə təlimin keyfiyyətini əsaslı şəkildə yüksəldir.

b. Oxu materiallarında dil hadisələri üzərində müşahidə şagirdlərin qrammatik – linqvistik biliklərini meydana çıxarır.

c. Müşahidələrin planlı qurulması şagirdlərdə düzgün, şüurlu, savadlı oxunun yaranmasına səbəb olur.

d. Müşahidələr şagirdlərin yazı və oxu bacarıqlarına müsbət təsir göstərir.

e. Müşahidə metodundan səmərəli istifadə orfoqrafik və orfoepik vərdişlərin müşahidəli qavranılmasına optimal təsir edir.

Beləliklə, yoxlayıcı eksperiment bu sahədə, şagirdin oxusunda və yazısında xeyli irəliləyişin olduğunu göstərdi.

Tədqiqatın nəticələrini təkmilləşdirmək və Azərbaycan dili təlimində şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək məqsədilə aşağıdakı təklifləri irəli sürürük:

1. Müşahidə idrakın da, təlimin də tamhüquqlu metodudur. Azərbaycan dili dərslərində, o cümlədən, oxu materialları üzərində şagirdlərdə müstəqil müşahidə aparmaq qabiliyyəti formalaşdırmaq üçün qrup tapşırıqlarından səmərəli istifadə, fərdi planlı çalışmaların, standart səviyyəli, differensial növləri maksimum tətbiq edilməlidir.

2. Oxu zamanı mətn üzərində müşahidələrin təşkili yeni təkmil metodika kimi hesab edilməli, daha ətraflı öyrənilməli və qabaqcıl təcrübəyə tətbiq olunmalıdır.

Nəticə və təkliflərimiz əsasında formalaşdırdığımız elmi-metodik müddəaların üstünlüklərini müdafiəyə çıxarırıq:

– Müşahidə dialektikanın metodudursa, təlimin də metodudur. Bu metod şagirdləri “Nə üçün belə deyirik?”, “Nə üçün belə yazırıq?” sualları ətrafında düşünmək və danışmaq vərdişlərinə yiyələndirir.

– Bu metodun didaktik üstünlükləri ibtidai siniflər üçün yazılacaq Azərbaycan dili dərslikləri üzrə metodik vəsaitlərdə istifadə olunmalı, standartlara əlavələr edilməlidir.

Dissertasiyanın əsas elmi-nəzəri müddəaları aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:


1. İbtidai siniflərdə təhsilin keyfiyyətinin yüksəldilməsində inteqrativ təlimin əhəmiyyəti //–Bakı: Azərbaycan Müəllimlər İnstitutu, “Müəllim hazırlığının müasir problemləri: təhsildə elmi və texnoloji innovasiyalar” adlı II Beynəlxalq Elmi konfransın materialları, –26-28 noyabr, – 2012. – s.353-355.
2. Müasir təlim prosesində orfoqrafiyanın orfoepiya ilə əlaqəli tədrisi və qarşıya çıxan problemlər // –Bakı: Azərbaycan Müəllimlər İnstitutu, “Xəbərlər”, Elmi metodik jurnal, – 2015. № 3, – s.76-78.
3. Nitq vərdişlərinin formalaşdırılmasının əhəmiyyəti // – Bakı: "Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal, – 2015. № 4/96. – s.240-242.
4. Язык и речь // – Тбилиси: “The Caucasus and the world”, международный научный журнал, – 2016. № 21, – с.11-15.
5. Значение наблюдения за языковыми процессами при усвоении материалов для чтения //– Херсон: «Педагогiчнi науки” Херсонський Державний Университет, Збiрник наукових праць. – 2016. № LXX, – с.64-68.
6. Oxu materialları üzərində dil hadisələrinin müşahidəsi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, M.Füzuli adına Əlyazmalar İnstututu, “Filologiya məsələləri”, – 2018. №4. – s.143-149.
7. Müəllimlərdə nitq vərdişlərinin formalaşdırılmasının əhəmiyyəti// –Bakı: Azərbaycan respublikasının Təhsil İnstitutu, “Müəllim hazırlığı strateji hədəflərdən biri kimi”mövzusunda Respublika elmi konfransın materialları, –18 may 2018. –s. 137-139.
8. Fəal təlim metodları ilə oxu materialları üzərində müşahidənin təşkili //–Bakı: “Pedaqoji Universitetin Xəbərləri”, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, –2018. C.66, №2, – s.123-128.

9. Tədrisdə dil hadisələrinin müşahidəsində İKT-nin əhəmiyyəti // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, “Təhsildə İKT”, elmi-metodik jurnal. – 2019. № 4, – s.78-83.
10. İbtidai siniflərdə oxu materialları üzərində müşahidənin müasir metodlarla təşkili // –Bakı: "Dil və ədəbiyyat" beynəlxalq elmi-nəzəri jurnalı, –2020. № 1 (113). –s.336-338.
11. İbtidai siniflərdə şagird nitqi üzərində dil hadisələrinin müşahidəsinin əhəmiyyət // – Bakı: Azərbaycan Universiteti, “Humanitar və ictimai elmlərin əsasları” mövzusunda I Respublika elmi konfransının materialları, –2020. № 1, –s.184-186.
12. Yeni İnformasiya Kommunikasiya Texnologiyalarından istifadənin orfoqrafiya və orfoepiyanın əlaqəli tədrisinə təsiri // – Bakı: “Dayanıqlı inkişaf və humanitar elmlərin aktual problemləri” üzrə beynəlxalq elmi konfransın materialları. – 14-15 may, – 2018. – s.694-696.
13. Significance of the language events // – Kiev, Ukrain: Taras Shevchenko 5th İnternational Congress On Social Sciences, – 8-10 may, – 2020. – p.313-318.
14. “The influence of the observation og language phenomena in primary school reading materials on the quality of teaching”// – Paris: V İnternational Paris Conference On Social Sciences// – February 07-08, –2021. – p.817-822..
15. Azərbaycan dilinin tədqiqi və qorunması məsələsinin aktuallığı //– Bakı:” Humanitar elmlərin inkişaf strategiyaları” adlı respublika elmi konfransın materialları, –6-7 mart, –2021. –s.62-65.

Dissertasiyanın müdafiəsi **18 fevral 2022-ci il tarixdə saat 12:00-da** Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən BFD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı ş., Üzeyir Hacıbəyli küçəsi 68, AZ1000

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat **14 yanvar 2022-ci il** tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 13.01.2022
Kağızın formatı: 60x84
Həcm: 40199
Tiraj: 100